

# Ulu öndər xilaskarlıq missiyasını şərəflə yerinə yetirdi

**❒ Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarı və xilaskarıdır. Müstəqilliyə aparan yol 1969-cu il iyulun 14-də Heydər Əliyevin ilk dəfə respublika rəhbərliyinə gəlişindən sonra başlamışdır. Qəlbi nurla dolu olan bu insan öz parlaq əməlləri ilə Azərbaycan xalqının gələcəyini işıqlandırdı. Heydər Əliyev sovetlər birliyində yeganə rəhbər idi ki, xalqla öz dilində danışır, onun daxili ehtiyaclarını bilir, sevincini, kədərini bölüşürdü. Ötən əsrin 60-cı illərində Azərbaycan sovet respublikaları içərisində axırıncı yerlərdən birini tuturdu. Sənaye və kənd təsərrüfatında rentabellik aşağı düşmüş, təhsil, səhiyyə, mədəniyyət və incəsənət sahələri ittifaqın digər respublikaları ilə müqayisədə çox geridə qalmışdı.**

Ulu öndər Heydər Əliyev ilk vaxtlardan etibarən xalqını və respublikasını sovetlər birliyində tanıtmağı, qabaqcıl yerə çıxarmağı qarşıya məqsəd qoydu. O, qısa müddətdə qarşıya qoyduğu bu məqsədə böyük əzmkarlıqla çatdı. Respublika ittifaqın qabaqcıl, sürətlə inkişaf edən bir respublikasına çevrildi. Azərbaycan qazandığı mühüm nailiyyətlərə görə düz 11 il Keçici Qırmızı bayraqlara layiq görüldü. Ölkədə iqtisadiyyatın müxtəlif sahələri üzrə nəhəng infrastruktur layihələri həyata keçirilməyə başladı. Neft sənayesinin sürətli inkişafı digər sənaye və kənd təsərrüfatı sahələrinin tərəqqisinə yol açdı, xalqın rifah halı yüksəldi. Bütün sahələrdə intibah dövrü başlandı. Respublika rəhbəri azərbaycanlı tələbələrin ittifaqın ən nüfuzlu ali məktəblərində təhsil almalarına xüsusi diqqət və qayğı göstərirdi. Bu da təsadüfi deyildi. Ulu öndər Azərbaycanın nə vaxtsa müstəqil olacağına inanırdı və bu məqsədlə də peşəkar kadrların yetişdirilməsinə xüsusi qayğı ilə yanaşırdı. İttifaq miqyasında hüquq-mühafizə orqanlarında, orduda azərbaycanlı kadrların yerləşdirilməsi və irəli çəkilməsi Heydər Əliyevin diqqət yetirdiyi mühüm məsələlərdən biri idi. Ulu öndər şəxsi təşəbbüskarlığı və milli təəssübkeşliyi sayəsində Bakıda Cəmşid Naxçıvanski adına Hərbi məktəbin açılışına nail oldu. Ötən müddətdə bu məktəb Azərbaycanda peşəkar hərbçilər ordusunun yaradılmasında müstəsna rol oynadı. Təsadüfi deyil ki, ölkəmizin müstəqillik əldə etdikdən sonra peşəkar hərbçilərə ehtiyacı, demək olar ki, bu məktəbi bitirən məzunların hesabına ödənildi.

Ulu öndər Azərbaycanın tanınmış mədəniyyət və incəsənət xadimlərinə, görkəmli şair və yazıçılarına yüksək dövlət mükafatlarının və fəxri adların verilməsinə, əsərlərinin çap olunmasına böyük qayğı ilə yanaşırdı. Məhz Heydər Əliyevin rəhbərliyi və böyük xidmətləri nəticəsində 1969-1982-ci illərdə Azərbaycanda yeni ziyalılar nəsli yetişdirildi.

"Literaturnaya qazeta"ya verdiyi müsahibəsində "Qoy ədalət zəfər çalsın" – deyən ulu öndər özünün milli intibah missiyasının 1969-1982-ci illər dövrü çərçivəsində, sözün həqiqi mənasında, ədalətin zəfər çalmasına nail oldu. Ölkədə həmin illərdə 213 yeni sənaye müəssisəsi istismara verildi. Qeyd olunan 13 ildə istehsal olunan sənaye məhsulunun həcmi əvvəlki 50 ildəkinə bərabər idi. "Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır" – deyən Heydər Əliyev Azərbaycanda ali təhsilin inkişafına böyük töhfələr vermişdir. 1970-1982-ci illərdə 5 yeni ali məktəb yaradıldı, çoxlu ixtisaslar, kafedralar, problem laboratoriyaları açıldı. Əgər 60-cı illərin sonunda respublikada 12 ali məktəb və bunlarda 105 fakültə, 450 kafedra var idisə, 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1982-ci ildə artıq 136 fakültəni və 530 kafedranı birləşdirən 17 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi. Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafında müstəsna xidmətlərindən biri də 1970-1980-ci illərdə Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəblərində respublikamızda xüsusi ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 141 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına imkan və şərait yaratması olmuşdur. Onu da qeyd edək ki, Azərbaycandan kənarda təhsil alanların milli tərkibində azərbaycanlıların sayı 1970-ci ilədək 40 faiz təşkil edirdisə, ümummilli lider Heydər Əliyevin apardığı uzaqgörən siyasət nəticəsində 1976-cı ildə müvafiq göstərici 85 faizə, 1977-ci ildə 92 faizə, 1980-ci illərin əvvəllərində isə 97,6 faizə çatdı. Bu addımlar strateji məzmun kəsb edirdi. Daha dəqiq desək, bir tərəfdən Azərbaycanın yüksək ixtisaslı kadrlara olan ehtiyacı təmin olunurdu, digər tərəfdən potensial Azərbaycan diasporunun formalaşması prosesi gedirdi. Təsadüfi deyildir ki, bu gün MDB-də Azərbaycan diasporunun sosial tərkibinin böyük hissəsini məhz həmin illərdə ulu öndərin xeyir-duası ilə təhsil almış insanlar təşkil edir və onlar müstəqil dövlətimizin maraqlarını yaşadıqları ölkələrdə şərəflə qoruyurlar. Heydər Əliyev böyük ustalıqla 59 yaşında millətçi ittihamı ilə Sibirə sürgün edilən dahi Hüseyn Cavidin cənazəsinin qalıqlarını Vətənə gətirməklə böyük qədirbilənlik nümunəsi göstərmiş oldu.

Bu bir həqiqətdir ki, sovet dövlətində bütün sahələr kimi, ordu quruculuğu prosesi də məlum siyasi-ideoloji prinsiplərə əsaslanırdı. Rəsmi Moskva milli hərbi kadrların hazırlanmasına bir qayda olaraq qısqanclıqla yanaşır və buna mane olurdu. Müttəfiq respublikalarda hərbi tədris məktəbləri əsasən Rusiya, Ukrayna və Belarusda fəaliyyət göstərirdi.

Ulu öndər Heydər Əliyev 1973-cü ildə böyük səylər nəticəsində belə bir məktəbin yaradılmasına nail olmuşdu. Həmin dövrdə Azərbaycan ildə təxminən 60 min gənci ordu sıralarına göndərirdi. Ancaq onların tam əksəriyyəti inşaat batalyonlarında xidmət keçirdi. Hərbi hissələrdə azərbaycanlı zabitləri isə barmaqla saymaq olardı. 1973-cü ildə Bakıda Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması böyük uzaqgörənlik nümunəsi idi. Heydər Əliyev 1969-1982-ci illərdə gələcək müstəqil Azərbaycan dövlətinin fəaliyyəti üçün bütün zəruri addımları atmağa nail oldu.

Ulu öndərin nüfuzunu və təşkilatçılıq bacarığını nəzərə alıb 1982-ci ilin dekabrında onu SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini vəzifəsinə təyin etdilər və Sov. İKP MK Siyasi Bürosunun üzvü seçdilər. Bundan sonra Azərbaycanda ittifaq büdcəsi hesabına iri sənaye və emal müəssisələri tikildi. Azərbaycanın Xəzərin sahilboyunca kurort zonasının yaradılmasına dair ittifaq əhəmiyyətli proqram qəbul edildi. 1986-cı ilin aprelində Çernobıl qəzasının baş verdiyi əraziyə SSRİ rəhbərliyindən ancaq Heydər Əliyev getmişdi və lazımi tədbirlərin görülməsinin də təşəbbüskarı o, olmuşdu.

Sovet dövlətinin başçısı M.Qorbaçov bu qədər nüfuzlu, istedadlı dövlət xadiminə, onun səmərəli fəaliyyətinə böyük qısqanclıqla yanaşırdı. Belə ədalətsiz münasibətə etiraz olaraq 1987-ci ilin oktyabr ayında Heydər Əliyev partiya və dövlət vəzifələrindən istefa verdi. Bu hadisədən iki həftə sonra M.Qorbaçovun məsləhətçisi erməni Aqanbekyan Fransanın "Humanite" qəzetinə müsahibə verərək Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi təklifini irəli sürdü. Ermənistandan qısa müddətdə – 1988-ci ildə 250 min soydaşımız öz doğma yurdundan didərgin salındı, evlər talan edildi, ardınca Sumqayıt hadisəsi təşkil edildi. Dağlıq Qarabağdakı torpaqlarımız işğala məruz qaldı.

1990-cı ildə Heydər Əliyev Azərbaycandan uzaqda Moskvada xüsusi nəzarət altında yaşayırdı. Ancaq 20 Yanvar faciəsinin ertəsi günü özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib sərt bəyanatla çıxış etməsi göstərdi ki, bu böyük şəxsiyyət üçün vətənindən, xalqından əziz heç nə yoxdur. Həmin dövrdə hakimiyyətdə olanlar milli xəyanət yolunu tutmuşdular. Ölkənin həyati əhəmiyyətli məsələlərini bir tərəfə qoyub Heydər Əliyevə qarşı çirkin kampaniya aparırdılar. Lakin bütün bunlara baxmayaraq Azərbaycan xalqı görkəmli dövlət xadimi Heydər Əliyevə böyük məhəbbət bəsləyir, ölkənin xilasını onda görürdü. Azərbaycan rəhbərliyinə qayıdışdan sonra Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ilin yanvar ayında Milli Məclisdə Azərbaycan xalqına qarşı hərbi təcavüz olan 20 yanvar hadisələrinə siyasi qiymət verilməsinə nail oldu. Yalnız Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra 1990-cı il qanlı Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi.



"20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il tarixli fərmanında deyilirdi: "Xalqımızın tarixinə qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir". Fərmanda Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymətin verilməsi, bu məqsədlə parlamentin xüsusi sessiyasının keçrilməsi məsələsinə baxılması tövsiyə edildi. Milli Məclisdə müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da qəbul edilən qərarda, nəhayət ki, 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi.

1990-cı ildə Bakıda baş verən qırğının əsas günahkarı M.Qorbaçov həmin il Beynəlxalq Nobel Sülh mükafatına layiq görüldü. 1995-ci il aprel ayının 27-də Türkiyədə səfərdə olan Mixail Qorbaçov İstanbulun Çırağan sarayında çıxış edərkən öz siyasi fəaliyyətinin bəzi məqamlarına toxunmuş və 1990-cı il 20 Yanvar hadisələrindən danışarkən öz günahını acizanə şəkildə etiraf edərək bildirmişdi: "Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımın ən böyük səhvi idi".

20 Yanvar hadisələrindən sonra artıq Heydər Əliyevin Moskvada qalması mümkün deyildi. Moskvadan Bakıya, oradan da təyyarə ilə doğma Naxçıvana qayıdan Heydər Əliyevi doğulduğu şəhər yenidən qoynuna aldı. Vətəninə qayıtmış Heydər Əliyev ilə görüşə gələnlər ona dərin ehtiramlarını bildirir, böyük rəhbəri məhəbbətlə bağrına basır, kövrəlib ağlayırdılar. Səhəri gün 22 iyul 1996-cı il tarixdə Naxçıvan şəhərində 30 min nəfərdən çox adamın toplaşdığı "Azadlıq" meydanında Heydər Əliyev tribunaya qalxaraq çıxış etdi. O zaman Naxçıvan ağır günlər keçirirdi. Sərhədyanı kəndlər ermənilər tərəfindən hücuma məruz qalırdı. Məhz belə bir ağır dövrdə tale Heydər Əliyevi ulu diyara gətirməklə Naxçıvanı işğaldan qorudu.

30 sentyabr 1990-cı ildə Azərbaycan SSR Ali Sovetinə və yerli xalq deputatları sovetlərinə seçkilər keçirilirdi. Xalq öz böyük oğluna yüksək etimad göstərirdi. Heydər Əliyev Babək rayonunun 340 nömrəli Nehrəm seçki dairəsindən Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan şəhərinin 2 nömrəli M.F.Axundov adına seçki dairəsindən Naxçıvan MSSR Ali Sovetinə deputat seçildi. 1990-cı il noyabrın 17-də xalq deputatı Heydər Əliyevin sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyası oldu. Sessiya Naxçıvan Muxtar Sovet sosialist Respublikasının adından "Sovet sosialist" sözlərinin çıxarılaraq Naxçıvan Muxtar Respublikası adlandırılması, Naxçıvan MSSR Ali Sovetinin adının dəyişdirilərək Naxçıvan MR Ali Məclisi adlandırılması, ilk Azərbaycan Demokratik Respublikasının üçrəngli dövlət bayrağının Naxçıvan MR-in dövlət bayrağı kimi qəbul edilməsi haqqında yekdilliklə qərar qəbul etdi. Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Ali Məclisinin binası üzərində qaldırıldı. 1991-ci il sentyabrın 3-də Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyası Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin sədri seçilməsi məsələsini müzakirəyə çıxardı. Sessiya Heydər Əlirza oğlu Əliyevi Naxçıvan MR Ali Məclisinin sədri seçdi. Heydər Əliyevin rəhbərliyi altında bütün xalq Naxçıvanı müdafiəyə qalxdı. Heydər Əliyev Ermənistanın təcavüzü barədə dünya ölkələrinə bəyanatlar verdi, gərgin, səmərəli fəaliyyəti ilə Naxçıvanı xilas etdi.

1992-ci il oktyabrın 16-da Azərbaycan ziyalılarının böyük bir qrupu Heydər Əliyevə müraciət edərək ondan yaradılmaqda olan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verməsini xahiş etdi. 21 noyabr 1992-ci ildə Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi və Heydər Əliyev açıq səsvermə yolu ilə partiyanın sədri seçildi. Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1991-ci il oktyabr ayının 18-də elan olunsa da, ölkədə siyasi-iqtisadi və hərbi böhran getdikcə güclənirdi. Cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikası 1920-ci il aprelin 28-də süqut etmişdi. Bu tarix göstərirdi ki, müstəqilliyi qoruyub saxlamaq, yaşatmaq onu qazanmaqdan qat-qat çətindir. Bəli, bu gün biz müstəqil Azərbaycan Respublikasının azad vətəndaşlarıyıq. Bu xoşbəxtliyi bizə bəxş edən ulu öndər Heydər Əliyevə əbədi minnətdarıq. Hələ 1991-ci ildə Naxçıvanda onun təşəbbüsü ilə 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi elan edilmişdi. Bu gün 31 dekabr bizim həmrəylik bayramımızdır. Ölkəmizdə müstəqil dövlətin yaranması və qurulması ilk illərdən ağrılı və əzablı yollardan keçməli oldu. Uzun illər həsrətində olduğumuz müstəqilliyi itirmək, parçalanma və məhv olma təhlükəsi ilə üzləşmişdik. Gəncədə Surət Hüseynov silahlı hərbi birləşmələrin köməyi ilə dövlət orqanlarını tutaraq Bakıya doğru hərəkət əmri vermişdi. Bu ağır günlərdə Naxçıvan MR Ali Məclisi bu hadisəyə öz münasibətini bildirdi.

1993-cü il iyunun 7-də Naxçıvan MR Ali Məclisi və Nazirlər Kabineti Rəyasət Heyətlərinin birgə iclası oldu. Ali Məclisin sədri Heydər Əliyev iclasda çıxış edərək bildirdi ki, Gəncədə baş veşmiş hadisələrə Naxçıvan MR Ali Məclisi münasibət bildirməli və bəyanat qəbul olunmalıdır. Bizim bəyanatımız xalq birliyinə, sülhə və barışığa yönəlməlidir. Bu cinayətkarlığın təşkilatçıları məsuliyyətə cəlb olunmalıdır. Biz bu bəyanatda hadisələrə siyasi qiymət verməliyik. Xalq vətəndaş müharibəsi qarşısındadır. Buna heç cür yol vermək olmaz.

İyun ayının 13-14-də Heydər Əliyev Gəncə şəhərində oldu. Hadisəni araşdırdı. Azərbaycanı bölünmək, yox olmaq təhlükəsindən qorudu. Xalqın iradəsi hər şeyə üstün gəldi, müstəqil Azərbaycan öz nicat yolunu seçdi və görkəmli siyasətçi Heydər Əliyevin hakimiyyətə qayıdışını təkidlə tələb etdi. Xalq bu bəladan, vətəndaş müharibəsindən qurtuluş yolunu Heydər Əliyevin hakimiyyətə qayıdışında görürdü. Azərbaycan Respublikası Ali Sovetinin iyunun 15-də keçirilən fövqəladə sessiyyasında Heydər Əlirza oğlu Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. 15 iyun günü tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. 3 oktyabr 1993-cü ildə Azərbaycan Respublikasında Prezident seçkiləri keçirildi. Mərkəzi seçki komissiyasının məlumatına görə Heydər Əlirza oğlu Əliyev seçicilərin 98,8 faiz səsini topladı. Beləliklə, Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi hakimiyyət sükanı arxasına keçdi, respublikamızın hərtərəfli inkişafını təmin etmək məqsədilə köklü islahatlara start verdi. 1994-cü il sentyabr ayının 20-də "Əsrin müqaviləsi" imzalandı.

Heydər Əliyevin qeyri-adi istedadı, dərin zəkası, fenomen yaddaşı, vətəninə bağlılığı, hər bir Azərbaycan vətəndaşı üçün örnəkdir. Dünyanın bütün qabaqcıl ölkələrində olduğu kimi Azərbaycanda da vətəndaşların mülkiyyət hüququnun, məhz ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında işlənib hazırlanması və 1995-ci il noyabr ayının 12-də ümumxalq səsverməsi ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk milli Konstitusiyasında təsbit olunması sahibkarlıq fəaliyyətinin genişlənməsinə böyük təkan verdi.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci il noyabrın 9-10-da Bakıda təntənəli surətdə Dünya Azərbaycanlılarının I qurultayı keçirildi. Qurultayda dünyanın 36 ölkəsindən mindən artıq nümayəndə, Azərbaycandan isə 1500-dən artıq adam iştirak edirdi. Qurultayda Heydər Əliyev böyük nitq söyləyərək dünya azərbaycanlıları qarşısında duran vəzifələri ətraflı əsaslandırdı, nəzərə çatdırdı ki, insan hansı ölkədə yaşamasından asılı olmayaraq, gərək öz milliliyini qoruyub saxlasın: "Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və azərbaycanlılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıdır". Dünya azərbaycanlılarının birlik və həmrəyliyinin möhkəmləndirilməsi, azərbaycançılıq qayəsinin inkişafı sayəsində ulu öndərin başladığı böyük işlər Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dünya azərbaycanlılarının 2011-ci ildə keçirilən III qurultayında İlham Əliyev demişdir: "Bizim xaricdə yaşayan böyük ailəmiz vardır. Onlar öz doğma vətənlərinə bağlı olan adamlardır. Bizi fərqləndirən əlamət ondan ibarətdir ki, harada yaşamağımızdan asılı olmayaraq, öz vətənimizə bağlıyıq. Bura bizim vətənimizdir. Hamımızın vətənidir. Müstəqil Azərbaycan bütün azərbaycanlıların vətənidir. Bizim bir vətənimiz-Azərbaycan, bizim bir dilimiz-Azərbaycan dili, bizim bir ideologiyamız-azərbaycançılıq məfkurəsi vardır".

Ulu öndər deyirdi ki, həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Biz də fəxr edirik ki, ulu öndərimizin əmanəti olan onun ideyalarını yaşadan, inkişaf etdirən, günbəgün müasirləşdirən Azərbaycanın, güclü dövlətçilik təməli olan bir dövlətin vətəndaşıyıq.

Unutmayaq ki, öz dövlətinə vətəninə millətinə, öz bayrağına, himninə və Prezidentinə hörmətlə yanaşan, onu ürəkdən sevən, ona sadiq olan xalqlar tarixin sınağından hər zaman üzüağ, qalib çıxıblar.

Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinə böyük töhfə verən ölkədir. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tblisi-Ərzurum qaz kəmərləri kimi mühüm enerji layihələri həyata keçirilmişdir. Hər iki kəmər vasitəsilə Azərbaycanın karbohidrogen ehtiyatları beynəlxalq bazarlara nəql edilir. Azərbaycan artıq Xəzər dənizinin digər tərəfində hasil olunan neftin daşınması üçün tranzit ölkəyə çevrilib. Bakıdan başlayaraq Avropada bitən vahid neft kəmərləri sisteminin ümumi uzunluğu 3500 kilometrə bərabərdir. Bu, regionun və Avropanın enerji təhlükəsizliyinə önəmli töhfədir. Azərbaycan öz tərəfdaşları ilə daha geniş formatda, enerji sektorunda dünyanın ən nəhəng layihəsi olan "Cənub" qaz dəhlizi layihəsi üzərində işləyir. Layihə 7 dövləti birləşdirir və əlavə ölkələrin cəlb edilməsi üçün də açıqdır. 2017-ci ilin oktyabrında Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin açılışı oldu. Bu, əslində qitələri birləşdirən dəmir yolu layihəsidir. Çünki bu dəmir yolu xətti Asiyadan Avropaya olan ən qısa marşrutdur. Onun sayəsində Asiyadan Avropaya və geriyə olan yük daşımaları üçün tələb olunan vaxt artıq 30 gün deyil, iki həftəyə bərabərdir. Azərbaycan bu gün bölgədə və dünyada etibarlı tərəfdaş, dinamik inkişaf edən ölkə imicinə malikdir. Bu, bizi sevindirir və sabaha, xoşbəxt gələcəyə inamımızı daha da artırır.

*Varaşil MƏMMƏDOV,*
*Əməkdar müəllim*